# "Şəhid qardaşlar" kitabı

**2006-cı il sentyabrın 1-də təyinatla Şəmkir rayonunun Rüstəm Əliyev adına Yeniabad kənd orta məktəbinə biologiya müəllimi kimi işləməyə göndərildim. Məmmədov qardaşları mənim ilk şagirdlərimdən olublar. Onda Cavid X, Çingiz isə VIII sinifdə oxuyurdu.**

## XIV yazı

*(Əvvəli ötən saylarımızda)*

**Şəhid Cavid və Çingiz Məmmədov qardaşları haqqında xatirələrim**

İlk dərsim VIIIa sinfinə zoologiya dərsi idi. Sinfə daxil oldum, salamlaşıb tanış olduqdan sonra sinifdəki uşaqlar, əsasən də dörd oğlan (Çingiz, Kamil, Seymur, Tural) məni sual atəşinə tutdular. Qurbağalar, sürünənlər haqqında cavabını bildikləri sualları verib məni yoxladılar. Məqsədlərini anlamışdım, amma fikirləşdim ki, qarşı çıxsam, başqa nəsə fikirləşərlər, ona görə də verdikləri bütün sualları ətraflı şəkildə cavablandırırdım. Təxminən dərsin yarısı keçmişdi, dəqiq yadımda deyil, o dörd nəfərdən hansısa biri digərlərinə "Ə ..., yox, doğrudan da, bilir. Dərs keçə bilər". Şagirdlərə dedim ki, əgər sınaqdan keçdimsə, dərsə başlayaq. Pərt oldular.

Çingiz ilk dərsdən şıltaqlığı, şuluqluğu ilə yadımda qaldı. Dərs oxumazdı, dərsdə səsli-küylü, ipə-sapa yatmaz idi. Hər dərs Çingizin adını çəkərdim. Heç cürə onun diqqətini dərsə cəlb edə bilmirdim.

IX sinifdə oxuyurdular. Dərslərin birində məni o qədər hövsələdən çıxartdı, axır dedim ki, sən balaca uşaq deyilsən, belə olmaz axı... Bu gün-sabah məktəbi bitirəcəksən, ali məktəbə qəbul olacaqsan-olmayacaqsan, amma hərbi xidmətə yollanacaqsan. Sənə vətəni, torpağı əmanət edəcəyik. Çingiz ayağa qalxaraq özündən razı bir əda ilə "Nə bilirsiz, bəlkə, elə Qarabağı biz azad edəcəyik", - dedi. Atalar demişkən: " Deyənmi, dedirdənmi?.."

Bəli, Çingiz Qarabağı azad edənlərdən, tariximizi yeniləyənlərdən, yeni tarix yazanlardan oldu. Qarabağımız uğrunda canından keçdi, şəhidlik zirvəsinə ucaldı.

Məktəb illərində dəcəlliyinə görə, hətta bir gün valideynlərinin mənimlə əlaqə saxlamaları üçün xəbər göndərməyə uşaq axtarırdım, dedilər ki, bəs X sinifdəki Cavid onun qardaşıdır, ona deyə bilərsiz. Tənəffüsdə Cavidi çağırdım: "Şokalad oğlan, səni bir dəqiqə olar?" Cavid mənə yaxınlaşdı. Və Çingizlə bağlı ona gileyləndim. Dedi ki, müəlimə, atam bilməsin, bir də sizi incitməz. Doğrudan, elə də oldu. O gündən sonra Çingiz dərsdə dəcəllik etmədi. Sakit dayanıb dərsdə gözləri ilə məni izləyirdi. Bir gün o qədər sakit, süst olmuşdu ki, özüm də narahat oldum. Çingizə yaxınlaşıb soruşdum ki, sənə nəsə olub, ağrıyıb eləmirsən? "Yox, müəllimə, ağrımıram, nədir ki?" Dedim: "Heç, sakit oturmusan, ona görə soruşdum".

Çingizin reaksiyası maraqlı oldu:" Ehh, ay müəllimə, sizin də qəribə xasiyyətiniz var. Səs salıram, "Niyə səs salırsan?", sakit oluram "Niyə sakit durursan?" - deyirsiz.

Qeyri-ixtiyari gülümsədim və dedim ki, indi də çox sakitsən, sadəcə narahat oldum.

Gah şıltaqlığı, şuluqluğu, səs-küyü, gah zarafatlarıyla Çingiz məktəbi bitirdi. Çox sonralar bildim ki, əsgərlikdən sonra hərbidə qalıb orada işləyir.

Bir qış səhəri idi. Hava çox dumanlı olduğundan göz-gözü görmürdü. Avtobusdan düşüb məktəbə gedirdim. Dumanda iki nəfərin yaxınladığını gördüm. Biri hərbi formada idi. Kitelinin boyunluğunu qaldırıb, kepkasını da lap aşağı salıb özündən razı bir əda ilə "Salam, müəllimə, necəsiniz?" - dedi. Salamını aldım, amma səs tonumdan onu və yanındakını tanımadığım hiss olundu. Hər ikisi güldü. Mülki formada olan dedi ki, müəllimə bizi tanımadı. Səsindən Cavidi tanıdım. Ona qədər Çingiz mənə tanışlıq verdi: "Müəllimə, "2" verdiyiniz oğlanam". Mən onda bildim ki, Çingiz hərbçidir.

Cavid təbiətən çox sakit uşaq idi. Ən azından mən onu elə tanıyırdım. Dərs dediyim iki il ərzində sakit təbiəti ilə yadımda qalıb. Qardaşı kimi Cavid də dərsə hazırlıqsız gələrdi. Bir dəfə necə oldusa, dərs zamanı Cavid arxada oturan yoldaşları ilə danışıb dərsdə səs-küy yaratdı. Mən qeyri-ixtiyari olaraq "Ey, şokolad oğlan, sakit ol, düz otur", - deyərək Cavidə səsləndim. Cavid "Müəllim, mənə niyə elə dediniz", - dedi. Hiss elədim ki, incidi. "Şokolad pisdi bəyəm? Xətrinə dəydimsə, üzr istəyirəm", - söylədim.

Zəng vuruldu. Uşaqlara "Siz çıxa bilərsiniz",- deyib sənədlərimi toplayıb otaqdan çıxırdım ki, qapıda Cavid bir yoldaşı ilə göründü və "Müəllimə, sizi bir dəqiqə olarmı?" - deyə səsləndi. Yaxınlaşdım. Cavid bir az utancaq, bir az sevincli "Müəllimə, siz məni həmişə şokolad oğlan çağıra bilərsiniz?" - deyə soruşdu. Dedim, "Bayaq incidin axı". "Yox, müəllimə, siz məni elə çağırın". O gündən Cavid mənim şokolad oğlanım, şokolad şagirdim oldu. Onu məktəbi qurtarana kimi o adla çağırdım.

**Vətən müharibəsi başlayanda onların hərbidə işlədiklərini tamam unutmuşdum. O xəbəri alana kimi...**

2020-ci il oktyabrın 3-də, gecə saat 11-in yarısı olardı, işğaldan azad olunan ərazilərin adlarının açıqlanmasını gözləyirdim. Mənə zəng gəldi. Zəng edən məktəbimizin direktoru idi. "Müəllimə, şəhidimiz var, - dedi, - sabah dəfn olunacaq, bizə əklil lazımdır". Şəhidin kim olduğunu soruşdum. "Məmmədov Cavid İlham oğlu",- dedi.




Həmin an şokolad oğlan heç yadıma düşmədi. Mən tamam başqa oğlanı fikirləşdim. Özümü heç cür ələ ala bilmirdim. Hətta fikirləşdiyim uşağın dərsdə etdiyi şıltaqlıqlardan danışıb ağlayırdım.

30 ildə verdiyimiz hər bir şəhid bizimdir. Hər bir azərbaycanlı ailəsinindir. Bu gün də sosial şəbəkədə, televiziya kanallarında tanımadığım şəhid haqqında oxuyanda, onun həyat yolu haqqında eşidəndə şəhidin doğmaları qədər o ağrını yaşayıram.

Cavid və Çingiz qardaşları bizim gözümüzün önündə şagirdimiz olaraq böyüyüblər. Biz müəllimlər üçün şagirdini itirmək çox ağırdır. O ağrını, o acını daha yaxından hiss edirəm. Nə qədər dəcəl, nə qədər şuluq olsalar belə heç bir müəllim öz şagirdinin itkisini istəməz. Hər şagird müəllimi üçün övlad kimidir. Valideyn bütün övladlarını sevdiyi kimi, müəllim də şagirdlərinin birini az, birini çox sevir. Amma sevir.

Şəhid olan Cavidin mənim şokolad oğlanım, şokolad şagirdim olduğunu yuxuda bildim. Xəbəri eşidəndə mən onu başqa Cavidimizlə səhv salmışdım. Şəhid xəbərini aldığım gecə yuxumda Çingizgilin sinfinə dərsə girdim, şagirdlərin davamiyyətini yoxlayırdım. Bütün uşaqlar məktəbli formasında idilər, təkcə Çingiz hərbi formada idi. Həmişəki kimi orta cərgədə birinci partada oturmuşdu. Sıra ona çatanda, mən onun adını çəkməmiş Çingiz ayağa qalxıb mənə əsgər salamı verdi. Və özünü təqdim etdi: "Mən, Məmmədov Çingiz İlham oğlu". Yuxudan ayıldım, onda anladım ki, Şəhid Cavid mənim şokolad şagirdimdir. Hər dəfə söhbət onlardan düşəndə o yuxunu danışıram və niyə Çingizin yuxuma girdiyini soruşurlar. Deyirəm ki, yəqin, Çingiz demək istədi ki, şəhid mənim qardaşımdır, müəllimə, başqası deyil. Anlada bilmirəm, ancaq o yuxudan sonra şəhidin kim olduğunu dəqiq bildim.

Cavidin yas mərasimində ailəsinin Çingizlə əlaqə saxlaya bilmədiyini eşitdim. Bütün kənd - onu tanıyan-tanımayan hər kəs ümidlə Çingizdən xoş xəbər gözləyirdi. Bunun üçün dualar edirdi. Təəssüf...

Dekabr ayının 17-də yenə zəng gəldi, yenə şəhid xəbəri aldım. Bu, aylardır itkin kimi axtardığımız Çingizin şəhid xəbəri idi.

Şəhidlik uca zirvədir. Bu zirvəyə ucalmaq hər kəsə nəsib olmur. Yaxınını şəhid vermiş biri kimi deyə bilərəm ki, bu zirvə nə qədər uca, qürurverici olsa da, geridə qalanlar - bizlər üçün onların yoxluğunu qəbul etmək, onları bir daha görə, səslərini bir daha eşidə bilməyəcəyimizin acısı çox ağırdır.

Allah Cavid və Çingiz Məmmədov qardaşlarına və onların timsalında cəmi şəhidlərimizə rəhmət eləsin. Məkanları cənnət olsun.

***Türkan Cəfərova, şəhid qardaşların müəllimi***

**Gözlərdən oxunan qəhrəmanlıq**

Tarixən Azərbaycan torpaqlarında doğulan, boya-başa çatan insanların hər biri vətənpərvər və qəhrəman ruhlu olublar. İkinci Qarabağ müharibəsində də biz bunu bütün dünyaya sübut etdik.

İnsanın həyat yolu əvvəldən onun alnına yazılır deyirlər. Kiçik yaşlarından insan davranışı, sözü-söhbəti ilə də bunu bəlli edir.

Cavid hələ kiçik yaşda olmasına baxmayaraq təmkini, qəhrəmanlara xas olan daxili zənginliyi gözlərindən oxunurdu. Hər dəfə dərsdə Azərbaycanın Dövlət Himni oxunan zaman vətən, yurd sevgisi onun himni oxumasında aydın sezilirdi. Himni ürəklə, həvəslə, əlini qəlbinin üzərinə qoyaraq oxuyurdu. Sanki hələ kiçik uşaq qəlbində öz şanlı, fəxarət dolu gələcəyini bilirmiş.

Məktəb illəri bitdikdən sonra Cavidin hərbçi peşəsini seçdiyini biləndə də ona olan hörmət və ehtiramım daha da artdı. Çünki hərbçi peşəsi də müəllimlik kimi müqəddəs bir peşədir.

Cavid və qardaşı Çingiz öz şəhadətləri ilə çox insana qismət olmayan bir zirvəyə yüksəldilər. Vətən uğrunda canından, qanından keçən hər bir oğul və qızlarımıza Allah rəhmət eləsin.

Şəhid ailələrinin qarşısında baş əyir, Qazilərimizə can sağlığı arzulayıram.

İlhamə Məmmədova şəhid qardaşların müəllimi.

*(ardı var)*

***Rəfail TAĞIZADƏ***